AMEA Rəyasət Heyətinin 06 oktyabr
2004-cü il tarixli 18/2 №-li qərarı ilə
təsdiq edilmişdir

# Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə

## I. Ümumi müddəalar

1.1. Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası (bundan sonra- Əlaqələndirmə Şurası)Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" 4 yanvar 2003-cü il tarixli fərmanına uyğun olaraq AMEA Rəyasət Heyətinin 11 fevral 2004-cü il tarixli 7/10 nömrəli qərarı ilə yaradılmışdır və onun nəzdində fəaliyyət göstərir.

1.2. Əlaqələndirmə Şurası Azərbaycan Respublikasının bütün elmi tədqiqat və ali təhsil müəssisələrində təbiət, texnika, humanitar və ictimai elmlər sahəsində aparılan fundamental və tətbiqi tədqiqatların, sahələrarası elmi-texniki proqramların əlaqələndirilməsinə və onların həyata keçirilməsinə nəzarət edən səlahiyyətli orqandır.

1.3. Əlaqələndirmə Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və digər qanunvericilik aktlarını, AMEA-nın nizamnaməsini, AMEA Ümumi yığıncağının və Rəyasət Heyətinin qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

## II. Əsas vəzifələri

2.1. Əlaqələndirmə Şurasının əsas vəzifələri aşağıdakılardır:

2.1.1. Respublikanın elmi tədqiqat və təhsil müəssisələrinin fundamental və tətbiqi elmi tədqiqatların aparılması, sahələrarası elmi-texniki proqramların işlənilməsi sahəsindəki fəaliyyətini əlaqələndirilmək;

2.1.2. Elmi-texniki tərəqqinin prioritet istiqamətlərini müəyyən etmək və onların həyata keçirilməsi üçün elmi zəmin yaratmaq;

2.1.3. Elmi-texniki və sosial-iqtisadi tərəqqinin mühüm problemləri üzrə elmi tədqiqatların aparılmasını təşkil etmək;

2.1.4. Elm və texnikanın nailiyyətlərinin təcrübədə istifadə edilməsinə kömək etmək.

## III. Funksiyaları

3.1. Əlaqələndirmə Şurası nəzdində yaradılan elmi problemlər üzrə elmi şuraların iştirakı ilə təbiət, texnika, humanitar və ictimai elmlər sahəsində fundamental və tətbiqi tədqiqatların prioritet istiqamətlərini və əsas problemlərini müəyyənləşdirir, bu problemlər üzrə tədqiqatların həyata keçirilməsinə nəzarət edir.

3.2. Nazirliklərin, elmi tədqiqat və təhsil müəssisələrinin təklifləri əsasında elmi tədqiqat işlərinin cari və uzunmüddətli planlarının hazırlanmasını təşkil edir.

3.3. Mühüm elmi-texniki problemlərin həlli, elm və texnikanın nailiyyətlərinin geniş tətbiq edilməsi üçün vacib işlərin planlarını və kompleks tədbirləri hazırlayır və təsdiq edir.

3.4. Elmi tədqiqat işlərin icra edilməsinin vəziyyətini təhlil edir və tədqiqatların elm sahələri və onun problemlər üzrə inkişafının üstün istiqamətlərinin müəyyən edilməsini təşkil edir.

3.5. Prioritet istiqamətlər üzrə elmi tədqiqatların yerinə yetirilməsi və onların inkişafı ilə bağlı məsələləri müzakirə edir.

3.6. Elmi işlərin planlaşdırılması və əlaqələndirilməsi sahəsində dünya təcrübəsini öyrənir, yayır və tətbiq edir.

3.7. Elmi problemlər üzrə elmi şuraların fəaliyyətinə elmi-metodiki rəhbərliyi həyata keçirir.

3.8. Əlaqələndirmə Şurası aşağıdakı məsələlər haqqında təkliflər hazırlayır:
- elmi problemlər üzrə elmi şuraların yaradılması və ləğv edilməsi;
- elm və təhsil müəssisələrində yeni elmi tədqiqat laboratoriyalarının yaradılması;
- respublikanın elm və təhsil müəssisələrinin və konstruktor-texnologiya təşkilatlarının elmi tədqiqat laboratoriyalarının ixtisaslaşmaşının və işlərinin istiqamətinin müəyyən edilməsi, elmi tədqiqatlarda təkrarçılığın aradan qaldırılması;
- elmin mühüm istiqamətləri üzrə ali təhsilli mütəxəssislərin və elmi kadrların hazırlanması;
- elmi tədqiqatların maliyyə və maddi-texniki təminatı.

3.9. Elmi tədqiqat işlərinin əlaqələndirilməsi, ayrı-ayrı problemlərin, həmçinin elmi tədqiqat işləri planının yerinə yetirilməsinin yekun nəticələri və onların tətbiqinə həsr olunmuş simpoziumların, konfransların, seminarların və sessiyaların keçirilməsini təşkil edir.

3.10. Respublikanın bütün elm və təhsil müəssisələri üçün doktoranturaya və dissertantınaya qəbul planını hazırlayır və təsdiq etmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

## IV. Hüquqları

4.1. Əlaqələndirmə Şurasının aşağıdakı hüquqları vardır:
- naziriiklərin, elm və təhsil müəssisələrinin elmi tədqiqat işlərini respublikanın sosial-iqtisadi inkişafının mühüm problemlərinə, istehsalatın səmərəliliyinin yüksəldilməsinə, ölkənin təhlükəizliyinin və müdafiəsinin möhkəmləndirilməsinə istiqamətləndirmək;
- elm və təhsil müəssisələrində işlənilən elmi problemlər, həmçinin onların yerinə yetirilməsi ilə bağlı mühüm sahələr üzrə tətbiq planlarının yerinə yetirilməsi haqqında hesabatları və plan layihələri haqqında məruzələri dinləmək, zəruri hallarda elmi- tədqiqat işləri planlarına yenidən baxılması, yerinə yetirilməsi, icra müddətinin dəyişdirilməsi, işləmələrin dayandırılması, aktual olmayan tədqiqatların plandan çıxarılması haqqında qərar qəbul etmək;

4.2. AMEA-nın elmi bölmələrindən, nazirliklərdən, elm və təhsil müəssisələrindən təbiət, texnika, humanitar və ictimai elmlər sahəsində elmi tədqiqat işlərinin planlarına, sahələrarası elmi-texniki proqramlara dair təkliflər, onların yerinə yetirilməsi haqqında hesabatlar, əlaqələndirilən proqramlara dair zəruri məlumatlar almaq;

4.3. Elm və təhsil müəssisələrindən mühüm elmi tədqiqat işləri və onların nəticələrindən təcrübədə istifadə edilməsi haqqında məlumat almaq;

4.4. Nazirliklərdən və digər dövlət orqanlarından Əlaqələndirmə Şurasının qarşısında qoyulmuş məsələlərin həlli üçün zəruri olan materiallar almaq.

## V. İdarə olunması

5.1. Əlaqələndirmə Şurasına onun sədri başçılıq edir.

5.2. Əlaqələndirmə Şurasının tərkibi onun sədri, sədr müavini, məsul katibi və digər üzvlərindən ibarət olur və AMEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.

5.3. Müxtəlif elm sahələri üzrə elmi tədqiqat işlərinin yerinə yetirilməsində iştirak edən elm və təhsil müəssisələrinin, nazirlikləri, habelə digər təşkilatların aparıcı alim və mütəxəssisləri Əlaqələndirmə Şurasının üzvləri ola bilər.

5.4. Çevik idarəetiməni həyata keçirmək üçün Əlaqələndirmə Şurasının bürosu yaradılır.

5.5. Əlaqələndirmə Şurasının qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsini təmin etmək üçün Əlaqələndirmə Şurasının nəzdində elmi problemlər üzrə elmi şuralar yaradılır. Elmi şuraların tərkibi AMEA-nın elmi bölmələrinin təklifləri əsasında Əlaqələndirmə Şurası tərəfindən təsdiq edilir.

5.6. Əlaqələndirmə Şurasının məsul katibinin başçılıq etdiyi işçi qrupu Əlaqəiəndirmə Şurasının və onun bürosunun tapşırığı ilə elmi-təşkilati işləri həyata keçirir və onların qərarlarının yerinə yetirilməsinə nəzarət edir.

5.7. Əlaqələndirınə Şurasının maddi-texniki təminatı AMEA-nın müvafiq qurumları tərəfindən həyata keçirilir.

5.8. Əlaqələndirmə Şurasının iclasları ildə 2 dəfədən az olmayaraq keçirilir. Əlaqələndirmə Şurasının üzvlərinin 2/3-si iştirak etdikdə o qərar qəbul etməyə səlahiyyətlidir. Əlaqələndirmə Şurasının qərarları iştirak edənlərin sadə səs çoxluğu ilə qəbul edilir.

5.9. Əlaqələndirmə Şurasının əsasnaməsi AMEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilir.